# AQRAR SFERADA İSLAHATLARIN KƏND TƏSƏRRÜFATINDA SAHİBKARLIĞIN TƏŞƏKKÜLÜNDƏ VƏ İNKİŞAFINDA ROLU

**E.F.RÜSTƏMOV**
*Bakı Dövlət Universiteti*

Azərbaycan öz dövlət müstəqilliyini əldə etdikdən sonra iqtisadiyyatın bütün sahələrində olduğu kimi, aqrar sahədə də böhran kəskinləşmiş, dövlətlərarası istehsal-iqtisadi əlaqələrin pozulması, ölkənin zorla müharibəyə cəlb edilməsi, yüksək dövlət idarəetmə orqanlarında boşluqların yaranması, orta və aşağı idarəetmə orqanlarında rəhbər işçilərin, mühəndis kadrların tez-tez dəyişdirilməsi ilk dövrlər ölkə daxilində ictimai-siyasi vəziyyəti gərginləşdirmişdir ki, bu da aqrar sferada böhran tendensiyalarının daha da dərinləşməsinə gətirib çıxarmışdır.

Kənd təsərrüfatının inkişafına dair 90-cı illərin əvvəlinə olan məlumatların təhlili göstərir ki, kənd təsərrüfatının bütün sahələri iflic vəziyyətinə düşmüş, əsas istehsal strukturları olan kolxoz və sovxozların istehsal gücündən tam istifadə etmək mümkün olmamış, aqrar sahələrin idarə edilməsi unudulmuş və bütün bunlar kənd təsərrüfatında olduqca mürəkkəb vəziyyət yaratmışdır.

Araşdırmalar göstərir ki, postsovet dövrünü yaşayan Azərbaycan Respublikasının aqrar bölməsi təbii ekoloji, sosial-iqtisadi və texniki-texnoloji problemlərlə üzləşmişdir. Aqrar sektorun müstəqilliyin ilk illərində tənəzzülünün səbəblərini aşağıdakı kimi qruplaşdırmaq olar:

✓ SSRİ dağıldıqdan sonra meliorasiya və irriqasiya işlərinə, becərmə texnologiyasına kifayət qədər vəsaitin ayrılmaması torpaqların şoranlaşmasına və eroziyasına, su mənbələrinin tükənməsinə, bitki örtüyünün genefondunun məhv edilməsinə, ətraf mühitin tullantılarla çirklənməsinə səbəb olmuşdur [7, s.22]. Bunun nəticəsində son illərdə müşahidə edilən istiləşmə və quraqlıq bir sıra ərazilərdə ənənəvi istehsal sahələrini belə məhv etmişdir.

✓ İnzibati-amirlik sisteminin özünü doğrultmaması və iflası, keçmiş SSRİ bazarlarının itirilməsi, dövlət tərəfindən məhsul tədarükünün aradan qalxması, təchizat, kənd təsərrüfatı, emal və xidmət müəssisələri arasında əlaqələrin pozulması ilə nəticələnmişdir. Bununla yanaşı, bazar münasibətlərinə əsaslanan yeni ərazi və sahə idarəetmə strukturlarının, qiymət və rəqabət mexanizminin formalaşmaması, maşın və avadanlıqların fiziki və mənəvi cəhətdən aşınması aqrar-sənaye kompleksinin bütün sferalarında tənəzzülə gətirib çıxardı.

✓ Aqrar bölmədəki tənəzzül iqtisadi subyektlərin tədiyə qabiliyyətinin aşağı düşməsilə yanaşı yeni texnologiyaların və elmi-texniki tərəqqi nailiyyətlərinin öyrənilməsi və tətbiqini də çətinləşdirmişdir.

✓ Müstəqillik əldə etdikdən sonra Azərbaycanda yaranmış müxtəlif partiya və siyasi qrupların iqtisadiyyatın inkişafı ilə bağlı mövqe

və siaysətlərinin köklü olaraq fərqlənməsi aqrar sektorun tənəzzülündə mühüm rol oynamışdı.

✓ Bütün yuxarıda göstərilən amillərin və proseslərin mənfi təsiri nəticəsində müstəqilliyin ilk illərində respublika iqtisadiyyatının aqrar bölməsini dərin tənəzzül bürüdü.

Məlumdur ki, müasir dövrdə planlı və mərkəzləşdirilmiş iqtisadi sistemin qeyri-mümkünlüyü, ən başlıcası isə ciddi çatışmazlıqları onun bərpasını və yeniləşməsini istisna edir. Dünya təcrübəsinin göstərdiyi kimi ölkə müstəqillik əldə etdikdən sonra xarici iqtisadi əlaqələr və inteqrasiya prosesləri mülkiyyət formasını və istehsal münasibətlərinin dəyişdirilməsini qarşısıalınmaz bir zərurətə çevirmişdir. Məhz bu baxımdan iqtisadiyyatın digər sahələrində olduğu kimi aqrar sahədə də həm institusional dəyişikliklər həyata keçirilməli, həm də ictimai mülkiyyət forması dəyişdirilərək özəl mülkiyyətçilik prinsipləri bərqərar edilməli idi. Bazar iqtisadiyyatında bazis rolunu oynayan xüsusi mülkiyyətçilik və sahibkarlığın yeni prinsiplər əsasında təşəkkülü və formalaşmasının vacibliyi, ölkə həyatında ilk dəfə olaraq, radikal dəyişiklik, əsaslı islahatların həyata keçirilməsinin aktual məsələsi kimi ön plana keçirdi.

Müstəqilliyin ilk illərində (1991-1995) kənd təsərrüfatında sahibkarlıq olduqca ləng inkişaf edirdi. Ölkədə 1992-ci ildə cəmi 320, 1995-ci ildə 830 müstəqil və kollektiv fermer təsərrüfatı var idi[1].

Ümummilli lider H.Əliyev ölkə təsərrüfatının inkişaf xüsusiyyətlərini dərindən bilən bir şəxs kimi iqtisadiyyatın, o cümlədən aqrar sektorun düşdüyü dərin tənəzzüldən çıxarmağın yeganə düzgün yolunun dərin, köklü islahatlar olduğunu bildirmişdir.

1995-ci il fevralın 15-də Azərbaycan Respublikasında aqrar-sənaye kompleksinin islahatının əsas istiqamətlərini və onların hüquqi təminatını müəyyən edən «Aqrar islahatların əsasları haqqında" Azərbaycan Respublikasının qanunu» qəbul edildi [5]. Bu qanunla aqrar islahatların məqsəd və vəzifələri açıqlanır, aqrar bölmədə yeni mülkiyyət münasibətlərinin formalaşdırılması və müxtəlif növlü təsərrüfat subyektlərinin yaradılması, aqrar bölməyə dövlət himayəsi, eləcə də aqrar bazarın dövlət tərəfindən tənzimlənməsinin hüquqi əsasları təsbit edildi [6, s.291-293].

Eyni zamanda, 1995-ci il fevralın 18-də aqrar sferada islahatların aparılmasında mühüm əhəmiyyət daşıyan "Sovxoz və kolxozların islahatı haqqında qanun» qəbul edildi. Göstərilən qanun sovxozların, kolxozların, təsərrüfatlararası və digər kənd təsərrüfatı istehsal müəssisələrinin istifadəsindəki torpaqdan və əmlakdan pay almaq hüququ olan şəxslər tərəfindən təsərrüfatın hər hansı təşkilati-hüquqi formasının könüllü seçilməsinə və yaradılmasına təminat verdi [8, s.293]. Qanun islahatın obyektləri və subyektlərini müəyyənləşdirməklə yanaşı, həm də ölkədə islahatı aparan orqanları da müəyyən etdi [4, v.61].

Göstərilən qanun kolxoz və sovxozların əmlakının özəlləşdirilməsinin əsas aspektlərini müəyyən edirdi. Sovxoz və kolxozların əmlakının ədalətlə bölüşdürülməsini təmin etmək məqsədilə prezident H. Əliyevin 1997-ci il 10 yanvar tarixli 534 nömrəli fərmanı ilə "Kənd təsərrüfatı müəssisələrində əmlakın bölünməsi və onun bir hissəsinin bələdiyyə mülkiyyətinə verilməsi qaydaları" təsdiq olundu [3].

Qanunda aşağıdakı təşkilati-hüquqi formalar yeni təsərrüfatçılıq subyektləri kimi nəzərdə tutulurdu:

✓ dövlət kənd təsərrüfatı istehsalı müəssisələri;

✓ məhdud məsuliyyətli müəssisə formasında fəaliyyət göstərən birgə təsərrüfatlar, kooperativlər və təsərrüfatlararası müəssisələr;

✓ səhmdar cəmiyyətləri;

✓ fərdi müəssisə formasında fəaliyyət göstərən kəndli (fermer) təsərrüfatları;

✓ şərikli, payçı və şərikli müəssisə formasında fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri;

✓ müəssisələr birliyi formasında fəaliyyət göstərən birliklər, assosiasiyalar və digərləri [8, s.295].

Aqrar sahədə tammiqyaslı islahatları təmin etmək, bu sahədə sahibkarlığın iqtisadi bazasını yaratmaq üçün torpaq islahatı haqqında qanun zəruri idi.

Yuxarıda göstərilən qanunlardan başqa ölkə rəhbərliyi tərəfindən aqrar sektorda islahatları, bu sektorun, eləcə də bu sektorda sahibkarlığın inkişafını təmin edən çoxlu sayda hüquqi-normativ aktlar qəbul edilmişdir. Aparılan islahatlar, eləcə də yaradılmış hüquqi-normativ baza kənd təsərrüfatında əsaslı struktur dəyişikliklərinə – kənddə bazar münasibətlərinin yaranmasına səbəb oldu.

Aqrar islahatlardan sonrakı kənd təsərrüfatında baş verən keyfiyyətcə yeni dövrün iki başlıca əlamətini fərqləndirmək olar. Birincisi, ən əsası aqrar sferada fəaliyyət göstərən istehsal strukturları həm kəmiyyət, həm keyfiyyət baxımından dəyişikliyə məruz qaldı, ikincisi, torpaq üzərindən dövlət inhisarının aradan qalxması nəticəsində sahibkaralar və sahibkarlıq subyektləri, kənd təsərrüfatında bazar strukturları formalaşdı. Bir-biri ilə sıx surətdə bağlı olan bu iki faktor öz növbəsində aqrar sektorun tənəzzülünün qarşısının alınmasında müstəsna rol oynadı.

Aqrar sektorda aparılan islahatları iki dövrə bölmək olar. İslahatların birinci mərhələsinin başa çatması sayılacaq dövrdə -1996-cı ilin sonunda artıq kolxoz və sovxozlar ləğv edilmiş, onların malik olduqları torpaq və əmlak sahələri kəndlilər arasında bölüşdürülmüşdü. Qanunla kənd təsərrüfatına yararlı torpaqların 22%-nin, 1 milyon 911 min hektarının xüsusi mülkiyyətə, 45%-nin dövlət, 33%-nin isə bələdiyyə mülkiyyətinə verilməsi nəzərdə tutulmuşdu [2]. İslahatın birinci dövründə özəlləşdirilməsi nəzərdə tutulan 1395000 hektar torpaq sahəsinin artıq 1391374 hektarı, yaxud 99,7%-i xüsusi əllərdədir. 871780 vahid torpaq sahəsi almalı olan ailələrin artıq 866698 vahidi, yaxud 99,4%-i üzvlərinə çatmalı olan torpağı almışlar [9, s.354]. Qeyd etmək lazımdır ki, təkcə 1 ildə (1 yanvar 2003 – 1 yanvar 2004) torpaq sahəsi alan ailələrin sayı 12378 vahid artaraq 862630-a çatmışdır. Bu fakt özü-özlüyündə kənd təsərrüfatında dərin aqrar islahatların aparıldığını, paylanması nəzərdə tutulan torpaqların öz sahiblərinə çatmasını bir daha sübut edir.

İslahatlardan indiyə qədər keçən dövr ərzində torpaqların özəlləşdirilməsi ilə yanaşı, kənd təsərrüfatına aid edilən əmlakın da özəlləşdirilməsi həyata keçirilmişdir. Kənd təsərrüfatına aid olan yük maşınlarının 92,4%-i, pambıqyığan maşınların 98,5%-i, taxılyığan kombaynların 98%, silos və yemyığan kombaynların 98,1%, traktorların 95,1%-i, iribuynuzlu mal-qara tövlələrinin 98,1%, qoyun yataqlarının 99%-i özəlləşdirilmişdir[9, s.354].

Gətirilən faktlar sübut edir ki, kənd təsərrüfatında sahibkarlığın

inkişafını təmin edən iqtisadi baza özəlləşdirmə prosesində artıq yaradılmışdır. İqtisadi və hüquqi-normativ bazanın yaradılması kənd təsərrüfatında sahibkarlıq subyektlərinin və fəaliyyətin təşəkkülünə, inkişafına səbəb oldu.

Araşdırmalar göstərir ki, islahatlardan keçən dövr ərzində aqrar sferada sahibkarlıq fəaliyyəti ilə məşğul olan istehsal strukturları həm də kəmiyyət baxımından dəyişikliyə məruz qalmışlar. Məsələn, 1999-cu illə müqayisədə 2002-ci ildə istehsal strukturlarının hamısının sayı azalmış və bu, ayrı-ayrı istehsal strukturları üzrə müxtəlif səviyyələrdə özünü göstərmişdir.

Beləliklə, prezident H.Əliyevin hakimiyyətə gəlməsindən sonra aqrar sahəni tənəzzüldən çıxarmaq üçün atdığı cəsarətli addımlar, aqrar sferada islahatların aparılması, yeni münasibətlərin formalaşdırılması üçün hüquqi-normativ bazanın yaradılması kənd təsərrüfatında bazar strukturlarının təşəkkülündə və inkişafında müstəsna rol oynadı.

**QEYDLƏR:**


1. "Azərbaycan" qəzeti, 6 yanvar 1995.
2. "Azərbaycan" qəzeti, 25 sentyabr 1996.
3. "Azərbaycan" qəzeti, 11 yanvar 1997.
4. ARKNA, Kollegiyanın materialları 1995, vər.61.
5. Az.Resp.Milli Məclisinin Arxivi, fond 2941,siy.1, iş.312, vərəq 106.
6. Azərbaycan Respublikasının qanunlar külliyyatı, II kitab. 311 s.
7. Salahov S. Keçid dövründə aqrar sahənin dövlət tənzimlənməsi// Maliyyə və uçot jurnalı//2004, N 8.
8. Sovxoz və kolxozların islahatı haqqında Az.Resp.Qanunu//Az.Resp. Qanunlar külliyyatı, II kitab. 350 s.
9. Vəliyev İ. Aqrar sferada sahibkarlıq fəaliyyətinin inkişafının müasir vəziyyəti//Dirçəliş XXİ əsr, 2005 aprel-may. 354 s.


## РОЛЬ АГРАРНЫХ РЕФОРМ В УТВЕРЖДЕНИИ И РАЗВИТИИ ПРЕДПРИНИМАТЕЛЬСТВА В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ


**Э.Ф.РУСТАМОВ**


**РЕЗЮМЕ**


В статье изучены проведенные аграрные реформы предпринимательства в сельском хозяйстве Азербайджана после обретения независимости. Кроме того, в статье показаны, что после прихода к власти Г.Алиева, в аграрной сфере реформы получили плановый и продолжительный характер.


## THE ROLE OF REFORMS OF ARISING AUD DEVELOPMENT OF THE OWNERSHIP IN THE AGRARIAN SPHERE


**E.F.RUSTAMOV**


**SUMMARY**


İt had been learned the role of reforms in the begining and devolopment of ownership in the farming sphere till 1991 to 2006 in the article. Simultaneously, it had been determined that the reforms durable and regular in the national economy patterns after 1993.